# İŞİN TƏŞKİLİ VƏ SMETA ŞÖBƏSİNİN MÜHƏNDİSİ VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1. Qiymətləndirmə üçün preyskurant, quru və dəniz işlərində müvafiq əmsallar, işin texnologiyasına uyğun olaraq istifadə qaydaları
2. Plan yığımının hesablanma qaydaları, tikintinin təyinatından və yerindən asılı olaraq texnoloji proseslərin ardıcıllığı, lazımi maşın-mexanizmlərin təyini
3. Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə qayda və normaları

**1. Smeta nədir?**
A) tikintini maliyyələşdirmək üçün maya dəyəridir.
B) tikintini maliyyələşdirmək üçün izafi dəyərdir.
C) tikintini maliyyələşdirmək üçün gəlirdir.
D) tikintini maliyyələşdirmək üçün pulla ifadə olunan xərclərdir.
E) tikintini maliyyələşdirmək üçün qiymətdir.

**2. Smeta hansı bölmələr üzrə həyata keçirilir?**
A) hidrotexnika, tikinti
B) tikinti, quraşdırma, avadanlıq və digər
C) tikinti, quraşdırma
D) quraşdırma, avadanlıq
E) tikinti, avadanlıq

**3. Yerli smeta nədir?**
A) birinci smeta sənədidir.
B) işin həcmidir.
C) materialların qiymətidir.
D) hesabat formasıdır.
E) gəlir normasıdır.

**4. Obyekt smetası nədir və necə hesablanır?**
A) yerli smetaları öz tərkibində birləşdirir, layihə təşkilatı ilə və podratçı arasında olan sənəddir.
B) yerli smetaları öz tərkibində birləşdirir, sifarişçi təşkilatla podratçı təşkilatı arasında olan maliyyə sənədidir.
C) yerli smetaları öz tərkibində birləşdirir, müstəqil sənəddir.
D) yerli smetaları öz tərkibində birləşdirir, müəssisələrarası hesablaşma sənədidir.
E) yerli smetaları öz tərkibində birləşdirir, müqavilə qiymətidir.

**5. Düzünə xərclərə nələr daxildir?**
A) Düzünə xərclər smetada iş həcminin uyğun qiymətə vurulmasından alınır, əsas ə/h, maşın mexanizmin dəyərini cəmləşdirir.
B) öz tərkibində işçilərin əsas əmək haqqını, materialların dəyərini, maşın-mexanizmin dəyərini cəmləşdirir. Düzünə xərclər smetada iş həcminin uyğun qiymətə vurulmasından alınır.
C) Düzünə xərclər smetada iş həcminin uyğun qiymətə vurulmasından alınır, maşın mexanizmin və materialların dəyərini cəmləşdirir.
D) Düzünə xərclər smetada iş həcminin uyğun qiymətə vurulmasından alınır, əsas ə/h və materialların dəyərini cəmləşdirir.
E) Düzünə xərclər smetada iş həcminin uyğun qiymətə vurulmasından alınır, maşın mexanizmin dəyəri və əməyin sərfi normasını cəmləşdirir.

Nümunə

**6. Üstəlik xərclərə nələr daxildir?**
A) öz tərkibində tikinti quraşdırma təşkilatının xərclərini, istehsalatın ümumi şərtlərinin təşkili ilə bağlı, ona xidmət edilməsi və idarə olunması xərclərini birləşdirir. Üstəlik xərclər yerli smetanın sonunda düzünə xərclərdən faizlə hesablanır.
B) öz tərkibində tikinti quraşdırma təşkilatının xərclərini birləşdirir, düzünə xərclərdir.
C) öz tərkibində tikinti quraşdırma təşkilatının xərclərini birləşdirir, bank faizlərinin ödənilməsi xərcləridir.
D) öz tərkibində tikinti quraşdırma təşkilatının xərclərini birləşdirir, əsaslı və cari təmir xərcləridir.
E) öz tərkibində tikinti quraşdırma təşkilatının xərclərini birləşdirir, mühəndis texniki işçilərin ə/h-dır.

**7. Plan yığımı nədir və necə hesablanır?**
A) plan yığımı tikinti quraşdırma təşkilatının gəlir normasıdır,düzünə xərclərdən 8%-lə hesablanır.
B) plan yığımı tikinti quraşdırma təşkilatının gəlir normasıdır, üstəlik xərclərdən 8%-lə hesablanır.
C) plan yığımı tikinti quraşdırma təşkilatının gəlir normasıdır, əsas ə/h-dan 8%-lə hesablanır.
D) plan yığımı tikinti quraşdırma təşkilatının gəlir normasıdır, əməyin sərfi normasından 8%-lə hesablanır.
E) plan yığımı özünü tikinti quraşdırma təşkilatının gəlir norması kimi əks etdirir. Plan yığımı yerli smetanın sonunda düzünə xərclərdən və üstəlik xərclərdən 8% faizlə hesablanır.

NÜMUNƏ